# AZƏRBAYCAN RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

## Q Ə R A R

**“Qaz qurğularının qazın atmosferə buraxılmamasına, habelə qazın təzyiqinə, temperaturuna, tərkibinə və digər göstəricilərinə dair tələblər”in təsdiq edilməsi haqqında**

“Qaz təchizatı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2022-ci il 25 fevral tarixli 486-VIQD nömrəli Qanununun tətbiqi və “Qaz təchizatı haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 28 sentyabr tarixli 773 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 8 aprel tarixli 1658 nömrəli Fərmanının 2.3.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Qaz qurğularının qazın atmosferə buraxılmamasına, habelə qazın təzyiqinə, temperaturuna, tərkibinə və digər göstəricilərinə dair tələblər” təsdiq edilsin (əlavə olunur).

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 6 fevral 2023-cü il

№ 37

Azərbaycan Respublikası Nazirlər
Kabinetinin 2023-cü il 6 fevral
tarixli 37 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

# Qaz qurğularının qazın atmosferə buraxılmamasına, habelə qazın təzyiqinə, temperaturuna, tərkibinə və digər göstəricilərinə dair

# TƏLƏBLƏR

## 1. Ümumi müddəalar

1.1. Bu sənəd “Qaz təchizatı haqqında” Azərbaycan Respublikası Qanununun (bundan sonra – Qanun) 3-cü maddəsinin 2-ci hissəsinə əsasən hazırlanmışdır və qaz qurğularının qazın atmosferə buraxılmamasına dair tələblərə, habelə istehlakçıya satılan qazın təzyiqinin, temperaturunun, tərkibinin, sıxlığının, rütubətliliyinin, istilik yaratmaq qabiliyyətinin və təchizatın etibarlılığının (bundan sonra – qazın keyfiyyət göstəriciləri) texniki reqlamentlərin (texniki reqlamentlər qüvvəyə minənədək bu sahədə qüvvədə olan dövlət standartlarının) tələblərinə uyğunluğunu müəyyən edir.

1.2. Qazın keyfiyyət göstəricilərinin texniki reqlamentlərin (texniki reqlamentlər qüvvəyə minənədək qazın keyfiyyət göstəricilərinin dövlət standartlarının) tələblərinə uyğunluğuna nəzarət Azərbaycan Respublikasının Energetika Nazirliyi tərəfindən həyata keçirilir.

1.3. Bu sənəddə istifadə olunan anlayışlar Qanunda və digər normativ hüquqi aktlarda nəzərdə tutulmuş mənaları ifadə edir.

## 2. Qaz qurğularının qazın atmosferə buraxılmaması göstəricilərinə dair tələblər

2.1. Qaz qurğuları qazın atmosferə buraxılmamasını təmin etməli və başqa qurğu və əməliyyatların təhlükəli təsirindən mühafizə olunmalıdır.

2.2. Qaz qurğularına qazın atmosferə buraxılmamasına dair aşağıdakı tələblər müəyyən edilir:

2.2.1. qaz qurğuları “Texniki tənzimləmə haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq qəbul edilmiş texniki reqlamentlərin tələblərinə cavab verməlidir;

2.2.2. sənaye qaz qurğularında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 12 may tarixli 80 nömrəli Qərarı ilə təsdiq edilmiş “Qazdan istifadə Qaydaları” ilə müəyyən edilmiş hallarda və müddətlərdə buraxılış-sazlama və rejim-sazlama işləri aparılmalıdır;

2.2.3. qaz qurğuları onların texniki pasportlarında göstərilmiş tələblərə uyğun istismar edilməlidir;

2.2.4. qaz qurğusu işə salındıqdan dərhal sonra və onun istismarı zamanı qazın yanma məhsullarının (tüstü qazlarının) tüstü bacalarına ötürülməsi ilə havanın sorulması yoxlanılmalıdır.

## 3. Qazın keyfiyyət göstəricilərinə dair tələblər

3.1. İstehlakçıya satılan qazın keyfiyyət göstəriciləri “Texniki tənzimləmə haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq qəbul edilmiş texniki reqlamentlərin tələblərinə cavab verməlidir.

3.2. Qazın keyfiyyət göstəricilərinin texniki reqlamentlərin (texniki reqlamentlər qüvvəyə minənədək qazın keyfiyyət göstəricilərinin dövlət standartlarının) tələblərinə uyğunluğuna qaz paylayıcısı tərəfindən riayət olunmalıdır.

## 4. Qaz qurğularının qazın atmosferə buraxılmaması göstəricisinə dair tələblərin və qazın keyfiyyət göstəricilərinin texniki reqlamentlərin tələblərinə uyğunluğunun müəyyənləşdirilməsi

4.1. Qaz qurğularının qazın atmosferə buraxılmaması göstəricisinə dair tələblərin və qazın keyfiyyət göstəricilərinin texniki reqlamentlərin tələblərinə uyğunluğunun müəyyənləşdirilməsi “Texniki tənzimləmə haqqında” və “Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında” Azərbaycan Respublikası qanunlarının tələbləri nəzərə alınmaqla, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 12 may tarixli 80 nömrəli Qərarı ilə təsdiq edilmiş “Qazdan istifadə Qaydaları”na uyğun həyata keçirilir.